

AZƏRBAYCAN RESPUBLİKASININ
MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ

# 2019 İLLİK HESABATI



# MÜNDƏRİCAT


| | |
|---|---|
| Akronimlər | 3 |
| Ön söz | 4 |
| Analitik fəaliyyət | 6 |
| Statistika | 8 |
| Daxili əməkdaşlıq | 12 |
| Beynəlxalq əməkdaşlıq | 14 |
| İnformasiya texnologiyaları | 18 |



# AKRONİMLƏR

| | |
|---|---|
| **Eqmont Qrupu** | Maliyyə Monitorinqi Orqanlarının ixtisaslaşmış qurumu |
| **FATF** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| **GoAML** | Xüsusi analitik modul sistemi |
| **GUAM** | Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova – Demokratiya və İqtisadi İnkişaf üzrə Təşkilat |
| **İT** | İnformasiya texnologiyaları |
| **MONEYVAL** | Avropa Şurasının Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi |
| **MMX** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti |
| **PL/TMM** | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə |
| **PL/TM** | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi |



# ÖN SÖZ

Ötən 2019-cu il Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə (PL/TMM) fəaliyyət göstərən əsas qurumlardan biri olan Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (MMX) təşkilati, institusional inkişafı və beynəlxalq nüfuzunun gücləndirilməsi siyasətini həyata keçirməyə davam etmişdir.

MMX əməkdaşlarının peşəkar inkişafına dəstək məqsədi ilə onların ölkədə və xaricdə keçirilən tədbirlərdə iştirakı təmin edilmiş, maliyyə və insan resursları sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür.

Həmçinin PL/TMM sahəsində MMX milli qanunvericiliyin tələblərinə riayət olunması, monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, şəffaflığın və səmərəliliyin təmin edilməsi məqsədi ilə il ərzində müvafiq aktual mövzular üzrə bir çox təlimlər keçirmişdir.

Bunlardan əlavə, 2019-cu ildə MMX-nın beynəlxalq əməkdaşlığının genişləndirilməsi və nüfuzunun artırılması istiqamətində sistemli şəkildə işlər aparılmışdır. Belə ki, dünyanın maliyyə monitorinqi orqanlarının beynəlxalq təşkilatı olan Eqmont Qrupunun işində MMX əməkdaşlarının fəal iştirak etməsi, xüsusi ilə sözügedən təşkilatın mandatında strateji əhəmiyyət daşıyan “Üzvlük, Dəstək və Uyğunluq” işçi qrupunda təmsilçilik səviyyəsinin artırılması, habelə bir sıra təşəbbüslərlə çıxış etməsini vurğulamaq olar.

MONEYVAL Komitəsi çərçivəsində də əməkdaşlığın intensivləşdirilməsi istiqamətində bir sıra addımlar atılmışdır. Komitənin plenar iclaslarına fəal şəkildə qatılma, Moldova Respublikasının V raund qiymətləndirilməsində MMX əməkdaşının qiymətləndirici-ekspert qismində iştirakının təmin edilməsi, habelə 2020-2022-ci illər üzrə MONEYVAL Strategiyasının müzakirəsi məqsədilə yüksək səviyyəli işçi qrupunun fəaliyyətində MMX-nin rəhbərlik səviyyəsində təmsil olunmasını da qeyd etmək yerinə düşərdi.

Bununla yanaşı, ikitərəfli beynəlxalq əməkdaşlıq formatına da diqqət yetirilmiş, xarici dövlətlərin maliyyə monitorinqi orqanları ilə görüşlər təşkil edilmiş, gələcək birgə əməkdaşlıq tədbirləri müzakirə edilmiş, habelə təcrübə mübadiləsi məqsədi ilə Rusiya Federasiyası və Ukraynaya işgüzar səfərlər təşkil edilmişdir.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, 2019-cu ildə “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlər MMX tərəfindən icra edilmişdir.

**Rövşən Nəcəf**
**İdarə Heyətinin sədri**



# ANALİTİK FƏALİYYƏT

MMX-də şübhəli əməliyyatlar barədə hesabatların təhlili "Məlumatların təhlili departamentində araşdırma və təhlil fəaliyyətinə dair Təlimat"a uyğun olaraq "GoAML" proqram təminatı vasitəsilə həyata keçirilir.

MMX-nin analitik fəaliyyəti taktiki və strateji təhlildən ibarətdir. Fiziki və hüquqi şəxslər və ya işi sübut edən hadisələr haqqında faktların dürüst ifadə edilməsi və işin formalaşdırılması üçün zəruri olan məlumatların yığımı prosesi kimi taktiki təhlil zamanı monitorinq subyektlərindən əldə olunmuş məlumatlarla digər taktiki məlumatlar tutuşdurulur.

Taktiki məlumatın əsas mənbəyini MMX-nin analitik informasiya sistemində yığılan məlumatlar, məlumata ümumi giriş imkanı olan mənbələr (şirkətlərin reyestri, auditor şirkətlərinin hesabatları, telefon bazaları, internet və s.), dövlət orqanlarının məlumat bazaları (vergi, ədliyyə, polis, miqrasiya, gömrük, daşınar və daşınmaz əmlakın qeydiyyatı və s.), ilkin məlumatı təqdim etmiş monitorinq subyektlərindən əldə olunmuş əlavə məlumatlar və digər ölkələrin maliyyə kəşfiyyat orqanları tərəfindən təqdim edilmiş məlumatlar təşkil edir.

Strateji təhlil zamanı MMX-nin gələcəkdə ümumi fəaliyyət istiqamətlərinin müəyyən edilməsinə kömək edən, onun fəaliyyətində istifadə oluna bilən biliklər, strateji məlumatlar bazası formalaşdırılır. Belə məlumatlar yeni problem və meyllərə, ümumi meyllərə və tipologiyalara, modellərə, coğrafi tədqiqatlara, şübhəlilik meyarlarına, davranış əlamətlərinə, cinayət fəaliyyətinin modellərinə, kriminal sxemlərə və digər analitik məhsullara aiddir. Strateji təhlilin əhatə dairəsinə hər hansı konkret qrupda kriminal sxemlərin müəyyən edilməsi, eləcə də cinayət fəaliyyətinin yeni modellərinin geniş konsepsiyalarının hazırlanması daxildir.

Hesabat ilində strateji təhlil istiqamətində aparılmış işlərin nəticəsi olaraq "Şirkətin rəhbər şəxsi tərəfindən mənimsənilmiş səhmdar vəsaitlərinin leqallaşdırılması", "Cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərinin fiktiv idxal müqavilələri əsasında "şell" şirkətlərinin bank hesabları vasitəsilə xarici ölkələrə, o cümlədən ofşor zonalara köçürülərək yuyulması" və "İşsiz şəxslərin işə düzəldilməsi vədi ilə aldadılaraq (dələduzluq) onlara məxsus vəsaitlərin mənimsənilməsi" üzrə yeni tipologiyalar hazırlanmış və MMX saytında yerləşdirilmişdir.

# STATİSTİKA

2019-cu il ərzində monitorinq subyektləri tərəfindən MMX-yə ümumilikdə 53 702 hesabat təqdim olunmuşdur. (Diaqram 1).

**Diaqram 1.**
**2018-2019-cu illər üzrə MMX-yə daxil olmuş hesabatların sayı**




MMX-nin elektron informasiya bazasına daxil olmuş müvafiq məlumatların 32 979-nu (61%) cari əməliyyatlar, 18 794-nü (35%) yüksək riskli əməliyyatlar, 465-ni (1%-i) şübhəli əməliyyatlar barədə və 1 464-nü (3%) digər növ hesabatlar təşkil etmişdir (Cədvəl 1).

[1] *MMX-ya məlumatlar hesabat (report) formasında daxil olur. Bir hesabata bir və birdən çox əlaqəli əməliyyatlar (transactions) əlavə oluna bilər.*



**Cədvəl 1.**
**2019-cu ildə MMX-yə təqdim edilmiş hesabatların strukturu**

| Daxili olmuş hesabatların kategoriyaları | Hesabatların sayı |
|---|---|
| Cari əməliyyatlar barədə hesabatlar (CTR) | **32 979** |
| Yüksək riskli əməliyyatlar barədə hesabatlar (HRR) | **18 794** |
| Şübhəli əməliyyatlar barədə hesabatlar (STR) | **465** |
| Digər əməliyyatlar barədə hesabatlar (OTR) | **1 464** |
| **CƏMİ** | **53 702** |

2018-ci il illə müqayisədə 2019-cu ildə CTR sayında 9% azalma olduğu halda, HRR sayında 24% artım müşahidə edilmişdir. Müvafiq dövr ərzində STR-ın sayı isə sabit qalmışdır. (Diaqram 2).

**Diaqram 2.**
**2018-2019-cu illər üzrə daxil olmuş hesabatların kateqoriyalar üzrə sayı**



2019-cu ildə MMX-yə orta hesabla 1 iş günü ərzində 222 hesabat təqdim edilmişdir. 2019-cu il üzrə təqdim olunmuş hesabatlara əlavə olunmuş əməliyyatların 51%-ni hüquqi, 49%-ni isə fiziki şəxslərin əməliyyatları təşkil etmişdir. (Diaqram 3).

**Diaqram 3.**
**2018-2019-cu illər üzrə MMX-yə daxil olmuş hesabatların strukturunda əməliyyatları həyata keçirmiş subyektlərin növü üzrə bölgü**




Şübhəli əməliyyatların təhlili ilə əlaqədar cari ildə 1 791 daxili sorğu verilmişdir. Verilmiş sorğuların 97%-i (1 744-ü) monitorinq subyektlərinin payına düşür (Cədvəl 2). Cari il ərzində şübhəli hal ilə bağlı Baş Prokurorluğa 1, Dövlət Təhlükəsizliyi Xidmətinə 7 məlumat təqdim edilmişdir.





**Cədvəl 2.**
**2019-cu ildə MMX tərəfindən sorğu verilmiş ölkədaxili subyektlər**

| Sorğu verilmiş ölkədaxili subyektlər | Sorğuların sayı |
|---|---|
| Monitorinq subyektlərinə verilmiş sorğular | 1 744 |
| HMO-ya verilmiş sorğular | 26 |
| Digər ölkədaxili qurumlara verilmiş sorğular | 21 |
| CƏMİ | 1 791 |

**Cədvəl 3.**
**2019-cu il ərzində xarici maliyyə monitorinqi orqanlarından daxil olan məlumatlar**

| MMX-yə daxil olan məlumatların sayı | Spontan məlumatlar | | Sorğular | | Sorğuya cavab | |
|---|---|---|---|---|---|---|
| | Məlumat sayı | Ölkə sayı | Məlumat sayı | Ölkə sayı | Məlumat sayı | Ölkə sayı |
| 119 | 43 | 19 | 51 | 31 | 24 | 17 |

**Cədvəl 4.**
**2019-cu il ərzində MMX-dən xarici maliyyə monitorinqi orqanlarına gedən məlumatlar**

| Sorğular | | Sorğuya cavab | |
|---|---|---|---|
| Məlumat sayı | Ölkə sayı | Məlumat sayı | Ölkə sayı |
| 33 | 23 | 55 | 28 |

[2] Monitorinq subyektlərinə sorğular goAML proqram təminatı vasitəsilə elektron qaydada verilir.



## DAXİLİ ƏMƏKDAŞLIQ

Hesabat ili ərzində MMX-nin monitorinq subyektləri, nəzarət, hüquq mühafizə və məhkəmə orqanları, habelə digər dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı davam etdirilmişdir. MMX-nin 2019-cu il üçün təsdiq olunmuş təlim planına uyğun olaraq il ərzində monitorinq subyektləri, nəzarət və hüquq mühafizə orqanları üçün ümumilikdə 11 mövzu üzrə 14 təlim keçirilmiş, bu təlimlərə ümumilikdə 321 iştirakçı cəlb edilmişdir.

2019-cu ildə monitorinq subyektlərinin məsul şəxsləri və aidiyyəti digər bölmələrin əməkdaşları üçün keçirilən təlimlər PL/TMM üzrə qanunvericiliyin tələbləri, PL/TMM-ə dair milli və dünya təcrübəsində olan tipologiyalar, şübhəli əməliyyatların meyarları və təhlili metodikası, risk əsaslı yanaşmanın tətbiqi və daxili risk qiymətləndirmələrinin həyata keçirilməsi, eləcə də maliyyə monitorinqi orqanına məlumatların təqdim olunması, böyük həcmli məlumatların emalı və təhlili üçün analitik alətlərinin istifadəsi kimi mövzuları əhatə etmişdir. Ümumilikdə, monitorinq subyektləri üçün keçirilən 9 təlimə 240 iştirakçı cəlb edilmişdir.

PL/TMM qanunvericiliyi ilə təsbit edilən nəzarət orqanları üçün keçirilən təlimlər bu orqanların aidiyyəti struktur bölmələrində FATF tövsiyələrinə və milli qanunvericiliyə uyğun olaraq PL/TM üzrə effektiv risk əsaslı nəzarət və tənzimləmə mexanizminin formalaşdırılması, eləcə də nəzarət orqanları tərəfindən sektoral PL/TM risklərinin qiymətləndirilməsi və bunlara uyğun olaraq müvafiq qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üzrə potensialın gücləndirilməsinə yönəlmişdir. Bu çərçivədə ötən il ərzində monitorinq subyektlərində daxili nəzarət sistemlərinin qurulmasının və benefisiar mülkiyyətçilərin müəyyənləşdirilməsinə dair öhdəliklərin həyata keçirilməsinin qiymətləndirilməsi, habelə risk əsaslı nəzarət çərçivələrinin qurulması məqsədilə nəzarət orqanlarının əməkdaşları üçün təlimlər baş tutmuşdur. Nəzarət orqanları üçün həyata keçirilən bu qəbildən olan 3 təlimə, ümumilikdə, 36 iştirakçı cəlb edilmişdir.



2019-cu il ərzində hüquq mühafizə orqanlarının əməkdaşları üçün PL/TM halları ilə bağlı istintaq texnologiyaları və bu cinayətlərin sübutetmə standartlarına dair 2 təlim keçirilmişdir. Sözügedən təlimlərdə müxtəlif hüquq mühafizə orqanlarının ümumilikdə 45 əməkdaşı iştirak etmişdir.

3 sentyabr tarixində MMX-nin əməkdaşları Azərbaycan Respublikasının Dövlət Neft Fondu yanında İşçi qrupun dəvəti ilə “Azərbaycanda Hasilat Sənayesində Benefisiar Sahiblik Məlumatlarının Açıqlanmasına dair Yol Xəritəsinin Tətbiqinə Dəstək” layihəsi çərçivəsində keçirilən görüşlərdə iştirak etmişdir.

13 sentyabr tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə keçirilmiş “Kölgə iqtisadiyyatına qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi” mövzusunda elmi-praktiki konfransda, eləcə də oktyabr-dekabr aylarında ADA Universitetində “Xəzər hövzəsi araşdırmaları” adlı seminarlarda MMX-nin əməkdaşı mühazirəçi qismində çıxış etmişdir.

Həmçinin 18 noyabr tarixində MMX tərəfindən ölkədə fəaliyyət göstərən bankların PL/TMM üzrə məsul şəxsləri ilə monitorinq iştirakçıları tərəfindən göndərilən hesabatların keyfiyyətinin yüksəldilməsi, yaranan texniki problemlərin müzakirəsi və mövcud sistemlərin təkmilləşdirilməsi üzrə metodiki dəstək göstərilməsi məqsədilə görüş təşkil edilmişdir. Bundan başqa, 2019-cu il ərzində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə notariusların şübhəli məlumatları MMX-yə onlayn qaydada informasiya sistemi üzərindən göndərilməsi işinin təşkil edilməsi ilə bağlı ikitərəfli servislərin hazırlanması üçün işçi qaydada görüşlər və müzakirələr davam etdirilmişdir. Bu çərçivədə MMX tərəfindən bütün ön hazırlıq tədbirləri artıq tamamlanmışdır.

18 dekabr tarixində MMX-nin və Azərbaycan Açıq Hökumət Platformasının təşkilatçılığı, Qeyri-kommersiya hüququ üzrə Beynəlxalq Mərkəz və ABŞ İnkişaf Agentliyinin Şəffaflıq naminə Vətəndaş Cəmiyyəti layihəsinin dəstəyi ilə “Qeyri-kommersiya sektoru üçün Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (FATF) standartlarının tətbiqi” mövzusunda beynəlxalq seminar keçirilmişdir.

Bundan başqa, Auditorlar Palatası tərəfindən 20 dekabr tarixində keçirilən “Auditorların PL/TM-ə qarşı mübarizə üzrə məsul şəxsinin eyniləşdirilmə, hesab və əməliyyatlar üzrə məlumatlara çıxışının təmin edilməsinə metodiki dəstəyin təyin edilməsi” və “Auditorlar Palatasının və onun üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların MMX-nin məlumat bazasına qoşulmasının təşviqi və təmin edilməsi” mövzusunda seminarlarda, eləcə də 27 dekabr tarixində Vergilər Nazirliyində hüquq xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri göstərən monitorinq subyektləri üçün keçirilən tədbirdə də MMX-nin əməkdaşları təqdimatlarla çıxış etmişdir.



# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2019-cu il ərzində Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun daha da artırılması, PL/TMM sahəsində beynəlxalq əməkdaşlığın və məlumat mübadiləsinin genişləndirilməsi, habelə kadr potensialının gücləndirilməsi məqsədilə MMX-nin rəhbərliyi və əməkdaşlarının müxtəlif beynəlxalq tədbirlərdə iştirakı təmin edilmişdir. MMX-nin həm PL/TMM üzrə fəaliyyət göstərən beynəlxalq formal və qeyri-formal qurumlarla, həm də digər ölkələrin maliyyə monitorinqi orqanları ilə əməkdaşlıq imkanlarının gücləndirilməsi məqsədilə ardıcıl addımlar atılmışdır.

Belə ki, 2019-cu ilin yanvar ayında Maliyyə Monitorinqi Orqanlarının Eqmont Qrupunun müxtəlif alt-işçi qruplarının görüşlərində (Cakarta, İndoneziya), 2-5 aprel tarixlərində Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin təşkilatçılığı ilə keçirilən seminarda (Almatı, Qazaxıstan), 23-26 aprel tarixlərində Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın müxtəlif alt-işçi qruplarının iclaslarında (Kiyev, Ukrayna), 15-18 may tarixlərində “Terrorçuluğa və narkotiklərin qeyri-qanuni dövriyyəsi, eləcə də mütəşəkkil cinayətkarlıq yolu ilə terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq və regional əməkdaşlıq” mövzusunda tədbirdə (Düşənbə, Tacikistan), 1-4 iyul tarixlərində isə Eqmont Qrupunun 26-cı plenar iclasında (Haaqa, Niderland) MMX təmsil olunmuşdur.

İl ərzində Eqmont Qrupunun strateji əhəmiyyət daşıyan “Üzvlük, Dəstək və Uyğunluq” işçi qrupunda fəal iştirak təmin edilmiş, bu işçi qrupun ekspertlər bazasına MMX-nin 2 əməkdaşının daxil edilməsini vurğulamaq lazımdır. Eqmont Qrupu ilə əməkdaşlığın intensivləşdirilməsinin başqa bir nümunəsi MMX-nin Montenegro MMO-nun həmin təşkilatda üzvlüyünə sponsorluq etmək təşəbbüsü ilə çıxış etməsi olmuşdur.

Hesabat ili ərzində MMX-nin beynəlxalq əməkdaşlığının əhəmiyyətli istiqamətlərindən biri də Avropa Şurasının MONEYVAL Komitəsi ilə bağlı olmuşdur. Belə ki, 16-20 iyun və 3-5 dekabr tarixlərində MONEYVAL Komitəsinin müvafiq olaraq 58-ci və 59-cu plenar iclaslarında MMX-nin rəhbərliyinin və əməkdaşlarının iştirakları təmin edilmişdir. Moldova Respublikasının V raund qiymətləndirilməsində MMX əməkdaşının qiymətləndirici-ekspert qismində iştirakı, habelə 2020-2022-ci illər üzrə MONEYVAL Strategiyasının müzakirəsi məqsədilə yüksək səviyyəli işçi qrupunun fəaliyyətində MMX-nin rəhbərlik səviyyəsində təmsil olunması 2019-cu ilin mühüm nailiyyətlərindəndir.

2019-cu ilin 22-23 oktyabr tarixlərində Fransa Respublikasının Strasburq şəhərində “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə və müsadirəsinə, o cümlədən terrorçuluğun maliyyələşdirilməsinə dair” Avropa Şurası Konvensiyası Tərəf Dövlətlər Konfransının 11-ci plenar iclasında MMX-nin əməkdaşı Azərbaycan Respublikasını təmsil etmişdir. Hesabat ilinin 9-10 dekabr tarixlərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən Strasburq şəhərində Şərq Tərəfdaşlığı ölkələri üçün keçirilən “Effektiv ünvanlı maliyyə sanksiyalarının tətbiqi” mövzusunda regional təlimdə də MMX-nin əməkdaşları təqdimatla çıxış etmişdir.

Hesabat ilinin 9-10 dekabr tarixlərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən Strasburq şəhərində Şərq Tərəfdaşlığı ölkələri üçün keçirilən "Effektiv ünvanlı maliyyə sanksiyalarının tətbiqi" mövzusunda regional təlimdə də MMX-nin əməkdaşları təqdimatla çıxış etmişdir.

Eyni zamanda 12-13 sentyabr tarixlərində Avropa Şurasının təşkilatçılığı və Avropa İttifaqının maliyyə dəstəyi ilə kibercinayətkarlığa qarşı mübarizə mövzusunda həyata keçirilən "CyberEast" layihəsi çərçivəsində kibercinayətkarlıq, elektron sübutlar, internet idarəçiliyi və cinayət ədliyyəsi ilə məşğul olan qurumlar arasında əməkdaşlığın gücləndirilməsi, Kibercinayətkarlıq üzrə Budapeşt Konvensiyasına uyğun olaraq hüquqi çərçivələrin formalaşdırılması məqsədilə aidiyyəti dövlət qurumları üçün təşkil olunan seminarda MMX-nin əməkdaşları iştirak etmişdir. 13 sentyabr tarixində isə MMX-də sözügedən layihə çərçivəsində ölkəmizdə səfərdə olan xarici ekspertlərlə kibercinayətlərin istintaqı üzrə hüquq mühafizə orqanlarının potensiallarının artırılması sahəsində MMX ilə əməkdaşlıq imkanlarının müzakirəsi üçün görüş təşkil edilmişdir. Əlavə olaraq, eyni layihə çərçivəsində 19 noyabr tarixində kibercinayatkarlığa qarşı mübarizə sahəsində dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsinə dair keçirilən dəyirmi masada da MMX təmsil olunmuşdur.

Bundan başqa, Avropa Şurasının Bakıdakı Ofisinin təşkilatçılığı ilə Avropa İttifaqı və Avropa Şurasının Yaxşıİdarəçilik üçün Tərəfdaşlıq Proqramının ikinci mərhələsi üzrə icra olunan "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətinin gücləndirilməsi" Layihəsi çərçivəsində 9-10 oktyabr tarixlərində "Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi üzrə istintaq zamanı qarşılıqlı hüquqi yardım", 25-29 noyabr tarixlərində "Açıq mənbələr üzrə məlumatların təhlili üsulları" və 18-19 dekabr tarixlərində "Maliyyə monitorinqi orqanı üçün strateji təhlil" mövzulu təlimlərdə MMX-nin əməkdaşları iştirak etmişlər.

PL/TMM sahəsində aparıcı rol oynayan FATF ilə də əlaqələrin gücləndirilməsi istiqamətində ötən il ərzində mühüm addımlar atılmışdır.



Belə ki, MMX-nin İdarə Heyətinin sədri FATF-ın 16-18 oktyabr tarixlərində keçirilmiş plenar iclasında, habelə qurumun digər əməkdaşları isə FATF-ın müxtəlif işçi qruplarının görüşlərində və təlimlərdə iştirak etmişdir.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində MMX-nin əməkdaşlarının Latviya, Lüksemburq, Rusiya maliyyə monitorinqi orqanları tərəfindən təşkil olunan konfrans, treninq və seminarlarda iştirakı təmin olunmuşdur. Bundan başqa ötən il ərzində MMX ilə Lüksemburqun nüfuzlu Maliyyə Texnologiyaları Transfer Agentliyi (ATTF) ilə birbaşa əməkdaşlığın gücləndirilməsi istiqamətində işlər görülmüşdür.

Bu çərçivədə ATTF tərəfindən MMX-nin, hüquq mühafizə orqanları və hakimlərin PL/TMM üzrə potensiallarının gücləndirilməsi məqsədilə təlimlərin təşkili üçün ilkin danışıqlar aparılmış və Lüksemburq hökuməti tərəfindən bu təlimlərin maliyyələşdirilməsi ilə bağlı ilkin razılıq əldə olunmuşdur.



# İNFORMASİYA TEXNOLOGİYALARI

MMX-nin informasiya texnologiyaları (İT) infrastrukturunun təkmilləşdirilməsi və müvafiq elektron xidmətlərin göstərilməsi istiqamətində 2019-cu il ərzində bir sıra tədbirlər görülmüşdür.

Bu çərçivədə MMX-nin informasiya ehtiyatının və sisteminin nüsxələnməsi və proqram təminatının mütəmadi yenilənməsi həyata keçirilmişdir. Mütəmadi olaraq server avadanlıqlarında sistem və audit loq jurnallarının izlənməsi, eləcə də məxfiliyin qorunması və kənar müdaxilələrin məhdudlaşdırılması məqsədilə serverlərin və inzibatçıların şifrələrinin vaxtaşırı yenilənməsi də hesabat ili ərzində təmin edilmişdir.

MMX-nin İT infrastrukturunda mövcud maddi texniki bazanın bütövlükdə və ayrı-ayrılıqda qiymətləndirilməsi aparılmış və tələb olunan avadanlıq və proqram vasitələrinin əldə olunmasına dair təkliflər hazırlanmışdır. Həmçinin monitorinq subyektləri tərəfindən müvafiq məlumatların MMX-yə "GoAML" sistemi vasitəsilə elektron şəkildə ötürülməsi və qəbul edilməsi zamanı bu məlumatların tamlığının və düzgünlüyünün təmin edilməsi məqsədilə zəruri texniki tədbirlər görülmüşdür. İl ərzində 49 monitorinq subyekti qeydiyyatdan keçmişdir.

Monitorinq subyektləri tərəfindən müvafiq məlumatların MMX-yə şifrələnmiş kanal üzərindən təqdim edilməsinin təşkili üçün nəzərdə tutulan xüsusi təhlükəsizlik sertifikatının əldə edilməsi Azərbaycan Respublikası Mərkəzi Bankının Sertifikasiya Mərkəzi tərəfindən aparılır. Ötən il ərzində MMX tərəfindən müvafiq monitorinq subyektlərinə yeni sertifikatlar verilmiş və vaxtı bitmiş sertifikatlar edilmiş sorğular əsasında yenilənmişdir. Ümumilikdə il ərzində 91 ədəd elektron sertifikat verilmişdir.



MMX-nin rəsmi internet səhifəsinin indikatorları və istifadəçilərin sayının monitorinqini aparmaq üçün istifadə olunan "Google Analytics" proqram təminatının göstəricilərinə əsasən, 2019-cu il üzrə internet səhifəsinin monitorinqinin nəticələri Cədvəl 5-də təqdim olunur.

**Cədvəl 5.**
**2019-cu il üzrə www.fiu.az internet səhifəsinin indikatorları**

| Seansların sayı | İstifadəçilərin sayı | Səhifələrin baxılması sayı | Yeni istifadəçilər | Qayıtmış istifadəçilər |
|---|---|---|---|---|
| 83 490 | 54 777 | 183 719 | 54 311 | 9 396 |